***Qlobal dünya düzənində baş verən proseslər – iqlim dəyişiklikləri, pandemik vəziyyət, terror dalğaları və s. kimi hadisələr nəticəsində mövcud olan bütün varlıqlara dair risklər yenilənən və artan xətlə öz aktuallığını qorumaqdadır. Risklərin idarə edilməsi, onların doğru dəyərləndirilərək maksimum az zərərlə xilas olmaq yönündə bir çox formul və mexanizm mövcuddur. Lakin qloballaşan, modernləşən və zamanın sürət qazandığı dünyamızda risklərin idarə edilməsi üçün ən unikal və təsdiqlənmiş müdafiə mexanizmi məhz sığorta sistemidir. Çünki risk sığortanın başlıca predmeti, sığorta isə cəmiyyətin əsas maddi müdafiə sipəridir.***

# Azərbaycanın sığortalanmış sabahı bu günün icbari reallığıdır

Bu gün ölkəmizdə də sığortaya olan inam və etibarın tədricən və mərhələli şəkildə formalaşması, vətəndaşların sığorta xidmətlərinə müraciət intensivliyinin artan templə irəliləməsi heç də təsadüfi deyil. Çünki cəmiyyətlərdə risk fərqində olmaq ehtiyacının yaranması və bilavasitə sığorta sisteminə güvən prosesi asan və birbaşa həyata keçmir. Bu günün reallığı ondan ibarətdir ki, Azərbaycanın sığorta sektoru lokal və qlobal proseslərə cavab reaksiyası olan refleksə malikdir. Sığorta bazarı iştirakçılarının davamlı və dayanıqlı inkişafı, sektor üzrə təqdim olunan xidmətlərin müxtəlifliyi, bu xidmətlər üzrə əlçatanlığın təmin olunması və ələlxüsus yaranan maneələrə baxmayaraq bazarın böyümə sürətinin qorunub saxlanması buna əyani sübutdur.

## Sığorta sektoru pandemiyanın neqativ təsirlərindən yayına bildi

2020-ci ildən dünyanı və ölkəmizi ağuşuna alan COVID-19 pandemiyası qlobal bazarlarda staqnasiya vəziyyətini formalaşdırdı. Dünya ölkələrinin bütün istiqamətlər üzrə iqtisadi klassifikasiyalarında neqativ yöndə hərəkətlilik müşahidə edilməyə başladı. Eniş trendinin sürət qazandığı və geniş çevrəyə yayıldığı həmin vaxtlarda beynəlxalq maliyyə bazarları üçün kəskin resessiya qaçılmaz oldu. Dünya maliyyə institutlarının və beyin mərkəzlərinin priventiv addımlarla bağlı gecikmiş çağırışları beynəlxalq reytinq agentliklərinin proqnozlarında gözlənildiyi kimi özünü doğrultmadı. Bu tabloda görünən mənzərə ondan ibarət idi ki, yeni iqtisadi durğunluq dövrünü yaşayan dünyada yalnız yeni iqtisadi inkişaf modelinə malik ölkələr duruş gətirə biləcək. Elə də oldu.

Dünyanın pandemiya panoraması fonunda Azərbaycan müasir islahatlar paketi çərçivəsində priventiv addımlar atır, sözün əsl mənasında yeni iqtisadi inkişaf modeli tətbiq edirdi. Yerli maliyyə bazarı, müxtəlif sektor və seqmentlər pandemiyanın neqativ təsirlərinin minimuma endirilməsi ilə bağlı əsaslı tədbirlər görür, dayanıqlı inkişafın davamlılığına nail olmağa çalışırdı. Bu istiqamətdə islahatların aparıldığı sahələrdən biri də məhz sığorta sektoru idi və həyata keçirilən fundamental reformlar 2019-cu ilin noyabr ayına təsadüf edirdi. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin 28 noyabr 2019-cu il tarixli sərəncamı ilə maliyyə bazarlarına, o cümlədən sığorta sektoruna nəzarət və tənzimləmə səlahiyyəti Azərbaycan Respublikasının Mərkəzi Bankına verildi.

Bu tarixi dəyişiklik nəticəsində yerli sığorta sektoru, xüsusilə də pandemiya gözlənilməzliyinin gətirdiyi məhrumiyyətlər və məhdudiyyətlər fonunda yeni inkişaf mərhələsinə qədəm qoymuş oldu. Yeni nəzarətedici orqan qısa zamanda bazar iştirakçıları ilə yanaşı, həm də sektorda fəaliyyət göstərən hər bir qeyri-hökumət təşkilatı ilə bağlı aktiv stimullaşdırıcı addımlar ataraq güc birlikdəliyi ilə produktiv nəticələrə nail olmağa başladı. Nəticədə, 2020-ci pandemiya ilinə olan sığorta icmalına görə, bazarda, 2019-cu pandemiyasız illə müqayisədə 7 faiz böyümə qeydə alındı.

## Böyümə trendi 2021-ci ildə də davam etdi

Sevindirici və əslində, gözlənilən haldır ki, yerli sığorta sektorunda analoji böyümə 2021-ci ildə də müşahidə edildi. Belə ki, ötən ilin ümumi sığorta hesabatına görə, yerli sığorta bazarı iştirakçıları tərəfindən təmin olunan yığımlar 2020-ci ilin hesabat dövrü ilə müqayisədə 115,2 milyon manat artaraq 843,8 milyon manat təşkil etdi. Nəticədə, 2021-ci il yerli sığorta bazarında 16 faiz böyümə ilə yadda qaldı. Müvafiq böyümə nəticəsində sığorta sektorunun ümumi daxili məhsuldakı payı, nəhayət, 1 faizə yüksəlmiş oldu ki, bunu da sektorun son 10 ildə qazandığı əhəmiyyətli iqtisadi müvəffəqiyyət olaraq dəyərləndiririk.

Hesabat dövrü ərzində təmin olunmuş böyümədə "Daşınmaz əmlakın icbari sığortası" növü (35,5 faiz), "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta" növü (18 faiz), "Həyatın yaşam sığortası" növü (33 faiz), "Kasko" növü (8 faiz), "Kreditlərin sığortası" növü (36 dəfə) aktiv rol oynamışdır.

## Maarifləndirmə tədbirləri və islahatlar davam etdirilir

2021-ci ilin sığorta hesabatında müşahidə olunan rekord böyümə əslində gözlənilən idi. Çünki Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosu arasında imzalanmış "Sığorta savadlılığının artırılması, maarifləndirmə, təbliğat və qarşısıalınma tədbirlərinin sistemli və ardıcıl həyata keçirilməsinə dair qarşılıqlı əməkdaşlıq haqqında" Memorandum çərçivəsində 2021-ci ildən etibarən funksional addımların atılmasına başlanılmışdı.

Maarifləndirmə, təbliğat və qarşısıalınma tədbirlərinin təşviqinə yönəlmiş bu 3 illik layihənin 2021-ci ilə təsadüf edən ilk mərhələsində əhalinin riskə yanaşması, vətəndaşlarda risk fərqindəliyinin formalaşdırılması başlıca istiqamət olmuşdur. Məhz bu layihənin ilk mərhələsinin uğurlu nəticəsi idi ki, 2021-ci ildə sığorta sektorunun ÜDM-dəki çəkisinin artırılmasına, bununla paralel olaraq bir qism sığorta növləri üzrə penetrasiyanın yüksəldilməsinə nail olundu.

Adı çəkilən maarifləndirmə layihəsinin 2022–2023-cü illərdə də davam etdiriləcəyini nəzərə alsaq, əminliklə deyə bilərik ki, yerli sığorta bazarındakı böyümə trendi növbəti illərdə də davam edəcək, vətəndaşlarda sığorta vərdişləri əsaslı şəkildə formalaşacaq və ölkə iqtisadiyyatının dayanıqlı inkişafında sığorta sektoru bilavasitə və daha aktiv şəkildə iştirak etmiş olacaq.

Qeyd etmək lazımdır ki, bu gün maarifləndirmə və təbliğat tədbirləri ilə yanaşı, sektorda mövcud boşluqların aradan qaldırılması ilə bağlı da əsaslı addımlar atılmaqda, islahatlar həyata keçirilməkdədir. Azərbaycan Respublikasının Mərkəzi Bankının nəzarəti, Azərbaycan Sığortaçılar Assosiasiyası və sığorta sektorunun digər təmsilçilərinin iştirakı ilə birgə həyata keçirilən müvafiq islahatlar əsasən sektor çərçivəsində təqdim olunan xidmətlərin kütləvi elektronlaşdırılması, növlər üzrə penetrasiyanın yüksəldilməsi və sığorta xidmətlərinə mövcud və potensial sığortalıların əlçatanlığının təmin olunmasına hesablanmışdır. Bu istiqamətdə aidiyyəti dövlət qurumları və təşkilatlarla əməkdaşlıqlar təmin olunur, birgə layihələrlə sığortanın önəm və mahiyyəti mütəmadi şəkildə aktuallaşdırılır.

## Yerli sığorta sektorunun inkişafında, əsasən, Türkiyə təcrübəsinə istinad edilir

Razılaşmalıyıq ki, həyata keçirilən hər bir islahat və inkişaf tədbirlərində beynəlxalq təcrübənin yer alması dövrün başlıca tələbidir. Yerli sığorta icması olaraq bizlər də sektorun inkişafında dünya təcrübəsinə əsaslanmaqla dayanıqlı böyüməni əsas prinsip olaraq müəyyənləşdirmişik. Bu istiqamətdə həm ölkəmizin sığorta bazarı prinsipləri ilə eynilik təşkil etdiyi üçün, eyni zamanda zəngin sığorta tarixinə malik olduğuna görə Türkiyə təcrübəsi, tərəfimizdən prioritet olaraq müəyyənləşdirilmişdir.

Qeyd olunan istiqamətdə Azərbaycan Sığortaçılar Assosiasiyası Türkiyənin sığorta requlyatoru olan Türkiyə Sığorta Birliyi ilə qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi məqsədi ilə ilk addım olaraq Memorandum imzalamışdır. Müvafiq Memorandum çərçivəsində artıq ikitərəfli münasibətlər formalaşdırılmış, qardaş ölkənin sığorta təcrübəsinin öyrənilməsinə başlanılmışdır.



Artıq bu əməkdaşlıq yalnız iki qardaş ölkənin sığorta bazarlarının yox, eyni zamanda türkdilli ölkələrin sığorta sektorlarının tərəqqisini də hədəfləməkdədir. Belə ki, Azərbaycan Sığortaçılar Assosiasiyası ilə Türkiyə Sığorta Birliyinin birgə təşəbbüsü və ortaq razılığı ilə iki qardaş ölkə ilə yanaşı Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstanın sığorta birliklərinin də yer alacağı "Türk Dünyası Sığorta Birliyi"nin qurulması yönündə razılığa gəlinmişdir. Hesab edirik ki, yeni qurulacaq bu birlik, xidmətlərin və təcrübələrin inteqrasiyası ilə qardaş türk dövlətlərinin sığorta sektorlarının birgə inkişafını təmin edəcəkdir.

Azərbaycanın sığorta sektorunun beynəlxalq əməkdaşlıq əlaqələri günbəgün inkişaf etməkdədir. Belə ki, yerli bazara xarici təcrübənin inteqrasiyası məqsədi ilə Azərbaycan Sığortaçılar Assosiasiyası ötən il Sığortaçılar Assosiasiyalarının Qlobal Federasiyası kimi nüfuzlu beynəlxalq təşkilata üzv qəbul edildi və bununla da Avropanın sığorta qapıları yerli bazar üçün açılmış oldu. Bu da Avropa sığorta trendlərinin öyrənilməsi və yerli bazara inteqrasiyası baxımından yüksək əhəmiyyətə malikdir. Paralel olaraq Ümumrusiya Sığortaçılar Birliyi ilə qurulmuş əməkdaşlıq, növbəti mərhələdə isə sığorta sektoru daha çox inkişaf etmiş digər dünya dövlətləri ilə qurulacaq münasibətlər yerli bazarın dünya təcrübəsinə əsaslanaraq davamlı və dayanıqlı inkişaf edəcəyinə bir işarədir.

## Qarabağın sığorta potensialı öyrəniləcək

Təbii ki, yerli sığorta bazarımızın planları bununla bitmir. Azərbaycanın sığorta icması olaraq qarşımızdakı ən böyük layihələrdən biri də məhz əzəli və əbədi Qarabağımızla bağlıdır. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin başçılığı və müzəffər ordumuzun rəşadəti ilə gerçəkləşən 44 günlük Vətən müharibəsi nəticəsində əzəli torpaqlarımız düşmən işğalından azad edildi. Növbəti mərhələdə Qarabağın sığortası da biz sığortaçıların ən ali məqsədi və arzusudur. Qarşıdakı aylarda yerli sığorta icması olaraq Qarabağın sığorta potensialının öyrənilməsini həyata keçirib bu istiqamətdə müvafiq tədbirlərin realizə olunmasına başlayacağıq. Əminliklə və qürur hissi ilə bildirmək istəyirik ki, sığortaçılarımız Qarabağın işıqlı sabahlarını sığortalamağa bütün imkanları ilə tam hazırdırlar.

Statistik icmal rəqəmləri onu göstərir ki, Azərbaycanın sığorta sektoru yeni inkişaf mərhələsinə qədəm qoyub. 2021-ci il yerli sığorta bazarının sağlamlaşdırılması, bununla da onun makroiqtisadi şoklara qarşı immunitetinin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malik oldu. Fundamental və texniki sektorial təhlillər onu proqnozlaşdırmağa əsas verir ki, yeni inkişaf mərhələsi yerli sığorta bazarına modern çağırışlar qazandırmaqla yanaşı, həm də bazarda yeni bir uğur paradiqması yaradacaqdır. Məqsəd isə dəyişməzdir – sabahın uğurlu sığortası bu günün icbari reallığıdır.

***Elmar MİRSALAYEV,***
***Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru***